# AZƏRBACAN RESPUPLİKASININ AUDİTORLAR PALATASI SƏDRİNİN SƏRƏNCAMI

**Bakı şəhəri** **№1/37** **12 dekabr 2017-ci il**

**Azərbaycan Respublikası Auditorlar Palatasının üzvləri tərəfindən üzvlük haqqının ödənişi vəziyyəti və bu sahədə təxirəsalınmaz tədbirlər barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının Maliyyə və təsərrüfat idarəsinin rəisi V.Rəhimov tərəfindən təqdim edilmiş təhriri məruzəni (əlavə olunur) nəzərə alaraq

**QƏRARA ALIRAM:**

1. Auditorlar Palatası Şurasının 2017-ci il 27 dekabr tarixində keçiriləcək iclasının gündəliyinə 2017-ci ildə Auditorlar Palatasının üzvləri tərəfindən üzvlük haqqının ödənilməsi barədə məsələ daxil edilsin.

2. Auditorlar Palatasının Maliyyə və təsərrüfat idarəsinin rəisi V.Rəhimova tapşırılsın:

2.1. 2017-ci il 25 dekabr tarixinə üzvlük haqqının ödəniş vəziyyəti barədə dəqiqləşdirilmiş məlumatı və bu məsələ ilə əlaqədar Auditorlar Palatası Şurasının qərar lahiyəsini hazırlayıb təqdim etsin;

2.2. 2017-ci il üzrə üzvlük haqqı qalıqlarının ödənilməsi istiqamətində təsirli tədbirlərin həyata keçirilməsini təmin etsin;

2.3. 2018-ci il üzrə ödəniləcək üzvlük haqqı məbləğləri barədə hesab-fakturalar hazırlayıb üç gün müddətində üzvlərə çatdırılmasını təmin etsin.

3. Bu sərəncamın icrasına nəzarət Auditorlar Palatası sədrinin müavini F.İsmayılova həvalə edilsin.

4. Bu qərarın mətninin Auditorlar Palatasının internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**PALATANIN SƏDRİ** **V.NOVRUZOV**